**Qaçqın və məcburi köçkün qadınların münasib işlə təmin edilməsi**

# PROQRAMI

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli 176 nömrəli qərarı ilə təsdiq edilmişdir**

| № | Tədbirlər | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nı rəhbər tutaraq qaçqın və məcburi köçkün qadınların məşğulluğunun gücləndirilməsinin təmin edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyəti orqanları | müntəzəm |
| 2. | Biləsuvar, Sabirabad, Saatlı rayonlarında məcburi köçkünlərin yığcam məskunlaşdıqları çadır şəhərcikləri, fin qəsəbələrində tikiş, toxuculuq sexləri və digər istehsal sahələrinin yaradılması | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, rayon icra hakimiyyəti orqanları | 2000 |
| 3. | "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahəsinin ayrılması Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 17 aprel tarixli 67 nömrəli qərarını nəzərə alaraq, Ağdam, Füzuli, Bərdə, Ağcabədi və digər rayonlarda qaçqın və məcburi köçkünlərə müvəqqəti istifadə və icarə məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada torpaq sahələrinin ayrılması və əmək qabiliyyətli qadınların işə cəlb olunması | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Torpaq Komitəsi və rayon icra hakimiyyəti orqanları | 2000 |
| 4. | Naftalan şəhərində, Biləsuvar, Saatlı, Sabirabad, Xocavənd, Bərdə və Şəki rayonlarında qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, şəhər | 2000—2001 |

| | | | |
|---|---|---|---|
| | **məqsədi ilə yeni iş yerlərinin yaradılması** | **və rayon icra hakimiyyəti orqanları** | |
| **5.** | **Məcburi köçkünlərin məskunlaşdıqları çadır şəhərciklərində (Biləsuvar, Sabirabad, Saatlı, Bərdə, İmişli rayonları) qadınların özünüməşğulluğunun təmin edilməsi məqsədi ilə yerli şəraitə uyğun olaraq pilot proqramlarının hazırlanıb həyata keçirilməsi** | **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi** | **2000—2002** |
| **6.** | **Füzuli rayonunun işğaldan azad olunmuş ərazisində məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədi ilə yeni iş yerlərinin yaradılması** | **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Füzuli rayon İcra Hakimiyyəti** | **2000—2001** |
| **7.** | **Qaçqın və məcburi köçkün qadınlara fərdi əməklə məşğul olmaq üçün müvafiq kreditlərin verilməsinin təşkil edilməsi** | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, *İqtisadiyyat Nazirliyi*, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası**[1] | **müntəzəm** |
| **8.** | **Ağcabədi rayonu ərazisindəki Laçın qış yatağında (Taxtakörpü) məcburi köçkünlərə fərdi və kollektiv şəkildə ayrılmış 2544 hektar torpaq sahəsinin su problemlərinin həll edilməsi** | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Torpaq Komitəsi və Laçın rayon İcra Hakimiyyəti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası** | **2000** |
| **9.** | ***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumları və "DOST" mərkəzləri* tərəfindən işədüzəltmədə qadın işsizliyinin səviyyəsini nəzərə alaraq,** | **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | **müntəzəm** |

| | | | |
|---|---|---|---|
| | qaçqın və məcburi köçkün qadınların münasib işlə təmin olunmasına üstünlüyün verilməsi[2] | | |
| 10. | Qaçqın və məcburi köçkün qadınların əmək bazarında rəqabətə davamlı peşə və ixtisaslar üzrə hazırlığının həyata keçirilməsi | Əmək və Əhalinin Sosial müntəzəm Müdafiəsi Nazirliyi | müntəzəm |
| 11. | Qaçqın və məcburi köçkünlərin kompakt məskunlaşdığı bölgələrdə, xüsusilə çadır şəhərciklərində daha çox qadınların cəlb olunduğu haqqı ödənilən ictimai işlərin təşkili | Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi, şəhər və rayon icra hakimiyyəti orqanları | müntəzəm |
| 12. | *Əmək birjalarında və əmək yarmarkalarında* qaçqın və məcburi köçkün qadınların işlə təmin olunmasına üstünlük verilməsi[3] | Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi | müntəzəm |
| 13. | Qaçqın və məcburi köçkün qadınların müəssisə və təşkilatlarda müəyyən edilmiş xüsusi (kvota üzrə) iş yerləri ilə təmin edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | müntəzəm |
| 14. | Qaçqın və məcburi köçkün qadınların məşğulluğu ilə bağlı problemlərin həllinə beynəlxalq humanitar təşkilatların, ictimai qurumların cəlb edilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi , Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi[4] | müntəzəm |

Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 30 sentyabr, № 9.- S. 4212-4214.